DOI:10.30546/gdu.5.2025

## TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR

UOT:94(479.24).

# E.Ə. I – ERAMIZIN I ƏSRİNDƏ ÖN ASİYADA HƏRBİ-SİYASİ PROSESLƏR VƏ ATROPATENA

***Alməmmədov Yasin Ətraf oğlu***
***AMEA-nın Abbasqulu ağa Bakıxanov adına***
***Tarix və Etnologiya İnstitutunun doktorantı***
***https://orcid.org/0009-0002-1204-7255***
***almmmdovyasin@gmail.com***

**Xülasə:** *Müasir dövrdə ölkəmizin qədim tarixinin öyrənilməsinə maraq daha da artmışdır.*

*Təqdim olunan məqalədə də dövlətçilik ənənələrimizin qədimliyini sübuta yetirən vacib mövzulardan birindən – Atropatena tarixindən bəhs olunur. Məqalədə təlatümlərlə dolu tarixi dövrdə - e.ə. I əsrdə, eramızın I əsrində, müharibənin və münaqişənin, zorakılığın və ekspansiyanın insan həyatının adekvat məzmunu olduğu bir şəraitdə - Ön Asiyada cərəyan edən proseslərin Atropatena dövlətinin sosial-iqtisadi və ictimai-siyasi həyatına davamlı və həlledici təsiri ardıcıl şəkildə izlənilir. Məqalədə, həmçinin e.ə. I əsrdə və e. I əsrində Atropatenaya rəhbərlik etmiş məşhur hökmdarların Roma-Parfiya qarşıdurması şəraitində həyata keçirdiyi daxili və xarici siyasətin əsas məzmunu və xarakteri açıqlanır, bu dövrdə Atropatenanın daxili siyasi vəziyyəti və beynəlxalq münasibətləri Ön Asiyada baş verən hərbi-siyasi dəyişikliklər kontekstində təsvir və təhlil edilir. I Artabazd (e.ə. 56-31), II Ariobarzan (e.ə. 20 - e. 4) və s. kimi görkəmli Atropatena hökmdarlarının hakimiyyəti dövründə Ön Asiyada, İranda və Cənubi Avropada baş vermiş ən vacib tarixi hadisələrə xüsusi diqqət ayrılır. Sözügedən dövrdə Atropatena hökmdarlarının həyata keçirdikləri xarici siyasətin prioritetləri, məqsədləri, istiqamətləri və nəticələri müəyyən edilir və müvafiq qaydada qiymətləndirilir.*

**Açar sözlər:** Atropatena, Roma, Parfiya, Sasanilər, Ön Asiya.
**Ключевые слова:** Атропатена, Парфия, Рим, Сасаниды, Передняя Азия.
**Keywords:** Atropatena, Parthia, Rome, Sassanids, Western Asia.

**Giriş**

Dövlətçilik tariximizin mühüm səhifələrindən biri də e.ə. 321-ci ildən eramızın 227-ci ilinədək mövcud olmuş, Yaxın Şərqdə və Ön Asiyada baş verən ictimai-siyasi hadisələrə və proseslərə həlledici təsir göstərmiş Atropatena dövlətidir [20, s. 206]. Atropatena dövləti özünün əlverişli təbii-coğrafi şəraiti və mühüm geosiyasi mövqeyi ilə Ellinizm mədəniyyəti arealına daxil olan dövlətlər sırasında xüsusi rol oynamışdır [5, s. 38]. Beləliklə, mühüm və əlverişli ticarət yollarının, o cümlədən “Böyük ipək yolu”nun üzərində yerləşdiyi üçün Atropatena bəhs olunan dövrdə Roma və Parfiya kimi böyük dövlətlərin timsalında antik dünyanın güc mərkəzlərinin maraq dairəsinə daxil olmuş və elə bu səbəbdən siyasi qarşıdurmalara, regionda hərbi-siyasi qüvvələr nisbətinin dəyişməsilə meydana gələn geosiyasi şəraitə uyğun balanslaşdırılmış xarici siyasət yürütməyə məcbur olmuşdur. Bir sıra Atropatena hökmdarları isə sözügedən vəzifənin öhdəsindən bacaraqla gəlmiş, ölkənin suverenliyini və ərazi bütövlüyünü uğurla qoruya bilmişlər. İlk belə siyasəti isə Atropatena dövlətinin yaradıcısı sayılan Atropat həyata keçirmiş, Makedoniyalı İsgəndərin Şərqə hərbi yürüşləri ilə əlaqədar yaranan qeyri-müəyyən və ən incə məqamlarda möhkəm siyasi iradə və düzgün qərar qəbul etmək bacarığı nümayiş etdirərək Atropatena dövlətinin qurtuluşunu

DOI:10.30546/gdu.5.2025

təmin edə bilmişdir [4, s. 43]. Atropat Əhəməni aristokratiyasının görkəmli nümayəndələrindən biri və Makedoniyalı İsgəndərin Şərqə hərbi yürüşünə qədər Midiya satrapı olduğu üçün regionda cərəyan edən hadisə və prosesləri düzgün qiymətləndirə, adekvat qərar çıxara və real qüvvələri operativ şəraitdə səfərbər edə bilmişdi [8, s. 110]. Atropatın gələcək Atropatena çarlarına miras qoyduğu siyasi strategiya adekvat situasiyalarda dəfələrlə tətbiq edilmiş, xüsüsilə də e.ə. I və e. I əsrlərində Roma dövləti ilə Parfiya çarlığı arasında yaranmış hərbi-siyasi qarşıdurma şəraitində gözlənilən yüksək effekti vermişdir.

Atropatena tarixinin müasir tədqiqatçılarından biri olan H.Ə. Həsənov 2017-ci ildə rus dilində yazdığı "Makedoniyalı Aleksandr və Atropat. Atarpatena / Atropatena /Azərbaycan. E.ə. 331-321-ci illər" adlı əsərində ayrı-ayrı şərqşünasların C. Bosvort, C. Haylend, H. Berve və baş.) əsərlərinə istinad edərək, Atropat vəfat etdikdən sonra Atropatena dövlətinə onun Ayqobar və Mitrobat (lat. Aegobare və Mithrobaeus) adlı iki oğlunun - rəhbərlik etdiyini iddia edir [9, s. 66]. Müəllif həm də bir sıra antik dövr Azərbaycan toponimlərinə, həmçinin o dövrün onomastik nünunələrinə istinad edərək Atropatilərin pers (fars) olmadıqlarını göstərir. Məsələn, o, Ceyms Olbrixtin 2013-cü ildə yazdığı "Aleksandrdan sonra. Diadoxlar dövrü" (e.ə. 323-381) adlı əsərində Flavi Arriana (86-160) istinadlar edərək Atropatın Makedoniyalı İsgəndərin diadoxlarından biri olan, İsgəndrin ölümündən sonra regent elan edilən Perdikkaya (e.ə. 365-320) ərə verdiyi qızı ilə bağlı vacib ifadəni ("Atropatın qızı fars deyildi") [9, s. 69] xatırladır, bununla da dolayı yolla, həm Atropatın, həm də sonrakı Atropatilərin fars olmadığını təsdiq edir. H.Ə. Həsənov ərəbdilli müəllif Əd-Davadarinin əsərinə istinadlar edərək Artropatdan sonra Atropatenada siyasi hakimiyyətin həmişə irsi yolla - atadan oğula keçdiyini vurğulayır. Müəllif həm də qeyd edir ki, geosiyasi dəyişikliklərlə əlaqədar ayrı-ayrı tarixi epizodlarda Atropatena dövləti parfiyalılara tabe etdirilsə də, eramızın I əsrinin 30-cu illərinədək o, müstəqilliyini qoruyub saxlamışdır [9, s. 72]. Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirdikdə qarşımızda gərgin və dinamik hadisələrlə zəngin bir dövrün, qədim dünyanın hərbi-siyasi rəqiblərinin öz maraq dairəsi uğrunda qəti mübarizə apardığı bir dövrün mənzərəsi canlanır. Bu tarixin əsas aktorlarından biri də bugün də çox böyük maraq doğuran, alimləri və tədqiatçıları daim özünə cəlb edən Atropatena dövləti idi.

Roma-Parfiya münasibətlərinin Atropatenanın siyasi həyatına təsiri

E.ə. I əsrin sonu, e. I əsrinin əvvəllərindən Ön Asiyada və Cənubi Avropada öz maraq dairələri uğrunda kəskin mübarizə aparan Roma və Parfiya dövlətləri arasında münasibətlər daha da gərgin xarakter aldı. Belə bir şəraitdə Yaxın Şərqin vacib siyasi subyektlərindən biri hesab olunan Atropatena dövləti qeyri-adi şərtlər daxilində onun təhlükəsizliyinə zəmanət verə biləcək düzgün xarici siyasət həyata keçirməyə məcbur idi. Artıq qeyd edildiyi kimi, Atropatena hökmdarları dövlətin müstəqilliyini qoruyub saxlamaq naminə böyük güclərin hərbi-siyasi qarşıdurması fonunda (əvvəlcə selevki çarlığı ilə romalılar, sonra parfiyalılarla və romalılar arasında baş vermiş münaqişə) yaranan şəraitdən düzgün istifadə etməyə çalışırdı. Beləliklə, atropatenalılar Roma ilə Parfiya arasında baş verən hərbi münaqişədə bəzən Parfiyanı, digər hallarda isə Roma respublikasını müdafiə edirdi. Qeyd edək ki, Roma-Parfiya hərbi-siyasi qarşıdurması hələ eramızdan əvvəl II əsrdə başlanmış, e.ə. 53-cü ilin 9 may tarixində baş verən və Romanın məğlubiyyəti ilə başa çatan Karra (Türkiyənin Şanlıurfa əyalətində indiki Haran rayonu) döyüşündən sonra bir qədər səngimişdi [16, s. 44-45]. E.ə. 38-ci ildə baş vermiş Hindar döyüşündə isə Antoninin rəhbərlik etdiyi Roma legionları qələbə qazanmışdı. Hər iki döyüşdə atropatenalılar Parfiya çarlığının hərbi-siyasi müttəfiqi kimi çıxış etmişdilər. Lakin e.ə. 36-cı ildə Fraaspa şəhərinin mühasirəsi zamanı Mark Antoninin məğlubiyyəti və həmin dövrdə Roma respublikasında hakimiyyət uğrunda gedən mübarizənin kəskinləşməsi ilə bağlı Roma-Parfiya münaqişəsi qısa bir müddət səngimişdi. Bununla belə, tərəflər arasında hərbi toqquşmalar, kiçik fasilələrlə 224-cü ildə Parfiya Arşakilərinin Sasani

DOI:10.30546/gdu.5.2025

sülaləsi tərəfindən devrilməsinədək davam etmişdi. Sasani sülaləsinin İranda hakimiyyətə gəlməsindən sonra da bölgədə Romaya qarşı mübarizə davam etmişdi [17, s. 71].

Qədim dövlətlərin tarixinin öyrənilməsində antik yazılı qaynaqlarda rast gəlinən cədvəllərin, hüquqi sənədlərin və xəritələrin xüsusi rolu və əhəmiyyəti vardır. Lakin qədim xəritələrə istinad edilməsi zamanı bir sıra uyğunsuzluqların ortaya çıxması da təbiidir. Qeyd edək ki, eramızın V əsrinədək qədim dünyada mövcud olmuş dövlət və ölkələrin sərhədlərini indiki cizgilərdə, dəqiq təsvir edən xəritə olmamışdır. Eramızın I (Oktavian Avqustun hakimiyyəti dövrü) - V əsrləri arasındakı dövrdə hazırlandığı ehtimal olunan antik xəritə - “Peytinger cədvəli” və yaxud “Peytinger lövhəsi” (lat. Tabula Peutingeriana) isə yalnız sxematik cizgilərdə Qədim Roma şəhərinə aparan yolları və keçidləri, müxtəlif təyinatlı obyektləri, ayrı-ayrı yaşayış məntəqələrini və onların arasında olan məsafəni təsvir edirdi. Atropatena dövlətinə gəldikdə isə bütün antik mənbələrdə onun kifayət qədər nüfuzlu siyasi qurum olması haqqında məlumat verilir [14, s. 29]. Həmin mənbələr paytaxtı Qazaka şəhəri olan qədim Atropatenanın nisbətən dəqiq sərhədləri haqqında konkret fikir söyləməyə imkan verir. Atropatena dövlətinin geniş hüdudlarda təmsil olunması isə onun hərbi-siyasi qüdrətini, ona ayrı-ayrı vaxtlarda rəhbərlik etmiş hökmdarların siyasi iradəsinin gücünü, uzaqgörən və müdrik xarici siyasət yürütmələrini sübuta yetirir. Qeyd edək ki, Atropatena dövləti haqqında III yüzilliyə aid “Kəbeyi-Zərdüşt”ün (ŠKZ) divarları üzərində üç dildə həkk edilmiş Sasani mətnlərində də qiymətli məlumat verilir [7, s. 194-195]. Bütün bunlar Atropatenanın sıradan bir cografi məkan deyil, müəyyən hərbi-siyasi çəkisi, əlində, baş verən bütün hadisə və proseslərə təsir göstərmək mexanizmləri olan gerçək bir subyektin təsviri ifadəsidir.

Eramızdan əvvəl I əsrin ortalarından başlayaraq, Yaxın Şərqdə, Ön Asiyada və Roma respublikasının siyasi-mədəni arealına daxil olan çox böyük ərazilərdə siyasi, ideoloji və geostrateji baxımdan ciddi dəyişikliklər baş verdi. Bu, Romada respublika üsul-idarəsinin ləğvi və prinsipatlıq (lat. principatus - Senat iclasını açan 1-ci senator, Romada prinsipatlıq məzmun cəhətdən imperiya xarakteri daşısa da, respublika dövrü idarəçilik strukturları da ləğv edilməmişdi) rejiminin (e.ə. 27 - e. 284) yaradılması ilə bağlı idi. Məhz Oktavian Avqust (e.ə. 27-ci - e. 14-cü illərində Roma imperiyasının ilk prinsepsi) prinseps seçildikdən sonra Parfiya və Atropatena ilə əlaqədar daha aktiv xarici siyasət yürütməyə başladı. O, sözügedən ölkələrdə cərəyan edən sülalələrarası qovğalardan və hakimiyyət savaşlarından istifadə edərək Yaxın Şərq regionunda öz nüfuzunu gücləndirməyə qərar verdi. Bu barədə Oktavian Avqust hakimiyyətinin son dövründə yazdığı “İlahi Avqustun əməlləri” (lat. Res Gestae divi Auqust) adlı əsərdə məlumat vermişdir [2, s. 146]. Həmin dövrdə Parfiya dövlətinə Atropatena hökmdarı I Artabazd (e.ə. 56-31) ilə birlikdə Roma sərkərdəsi Mark Antoniyə qarşı mübarizə aparmış IV Fraat (e.ə. 37- e.ə. 2) və onun oğlu V Fraat (e.ə. 2 - e. 4) rəhbərlik edirdi. Məlum olduğu kimi bu dövrdə sözügedən hökmdarlar (IV Fraat və Oktavian Avqust) regionda cərəyan edən proseslərlə və ölkədaxili hadisələrlə əlaqədar yaranmış şəraitə uyğun addımlar atır, birgə qərarlar qəbul edir, kompromis müqavilələr imzalayırdılar. Qeyd edək ki, Roma-Parfiya hərbi-siyasi qarşıdurması Romada e.ə. 74-71-ci illərdə baş vermiş Spartak üsyanı dövründə gündəmə gəlmiş və e.ə. 71-ci ildə Roma senatı Parfiya və Atropatenaya Lutsi Lisini Lukullun (e.ə. 117-56, - plebey nəslindən Roma sərkərdəsi və e.ə. 74-cü ildə Roma konsulu) komandanlığı altında ordu göndərmişdi. Lakin atropatenalılar parfiyalılarla birlikdə Roma hərbi təcavüzünə layiqli müqavimət göstərmişdi. E.ə. 69-cu ildə Lutsi Lukullu Şərq yürüşündə Böyük Qney Pompey əvəz etdi. Bu zaman Roma Pont çarı (e.ə. 281-62-ci illərdə Kiçik Asiyanın qərbində qədim dövlət, Amasiya, Sinop və Perqam şəhərləri müxtəlif vaxtlarda paytaxtları olmuşdur) VI Mitridatla mübarizə aparırdı. Üçüncü və sonuncu Mitridat müharibəsi (e.ə. 74-63) ilə əlaqədar Böyük Pompey Parfiya ilə kompromis sülh müqaviləsi bağladı. Romada Birinci triumvirat (lat. triumviratus - “Üç kişinin ittifaqı”, - e.ə. 59-53, -

DOI:10.30546/gdu.5.2025

Mark Lisini Krassın, Qay Yuli Sezarın və Böyük Qney Pompeyin Roma respublikasına müştərək rəhbərliyi) dövründə Parfiya ilə Roma arasında hərbi əməliyyatlar bərpa olundu. Bu zaman Birinci triumviratın əldə etdiyi yeni razılığa görə, Parfiya ilə Roma arasında nifaq obyekti saylan Suriya Mark Lisini Krassa verildi və o, e.ə. 55-ci ildə Parfiyaya qarşı yeni müharibəyə start verdi. E.ə. 54-53-cü illərdə o, Mesopotamiya şəhərlərini tutdu. Yerusəlim məbədini (Zarobabil məbədi – e.ə. 516 - e. 70) ələ keçirdi və qarət etdi. Yuxarıda qeyd olunduğu kimi e.ə. 9 may 53-cü il tarixində Karra (indiki Hərran) şəhəri yaxınlığında baş vermiş döyüşdə Mark Lisini Krassın oğlu Publi Krass həlak oldu, Mark Lisini Krass özü isə Parfiya sərkərdəsi Suren Mihranla danışıqlar apardığı zaman qətlə yetirildi. Bu hadisədən sonra Birinci triumvirat dağıldı və tezliklə keçmiş triumvirlər - Qay Yuli Sezarla Böyük Qney Pompey bir-birilərinin qatı düşmənlərinə çevrildilər. Bu isə e.ə. 49-cu ildə Romada yeni vətəndaş qarşıdurmasının (e.ə. 49-45) başlanmasına gətirib çıxartdı. Bununla da Poma-Parfiya münaqişəsi arxa plana keçdi. Yuli Sezarın (e.ə. 100-44) diktaturası dövründə (e.ə. 49-44) də Roma respublikasının Parfiya və Atropatena ilə münasibətləri sabit qaldı [19, s. 118]. İkinci Triumvirat (e.ə. 43-36, - Mark Antoni Kretik, Qay Oktavian Furin və Mark Emiliy Lepid) dövründə Roma ordusunun Parfiyaya və Atropatenaya hərbi yürüşlərinə start verildi. Bu dəfə yürüşlərə İkinci triumviratın üzvü - Qay Oktavian Avqustun bacısı Oktavia Minorun əri Mark Antoni Kretik (e.ə. 83-30) komandanlıq edirdi. Lakin sərkərdənin Parfiya və Atropatenaya yürüşləri uğursuzluqla başa çatdı. E.ə. 36-cı ildə Fraaspa (Atropatena) döyüşündə ağır məğlubiyyətindən sonra Mark Antoni yeni planlar qurmağa başladı. E.ə. I yüzilliyin 30-cu illərinin ortalarında “son Atropatilərin ən görkəmlisi sayılan I Artabazdın” [1, s. 253] dövründə Atropatenanın siyasi meyllərinin istiqaməti kəskin şəkildə dəyişdi və Romaya yönəldi. Bu zaman Roma imperatoru Oktavian Avqust da (e.ə. 27 - b.e.14) Atropatenaya münasibətdə daha liberal siyasət yürüdür, Artabazda müxtəlif şəkildə yardımlar edirdi. Lakin regionda baş verən hərbi-syasi peoseslərin daha gərgin mərhələyə qədəm qoyması ilə əlaqədar I Artabazd daha ehtiyatlı xarici siyasətə üstünlük verirdi. Qeyd edək ki, o dövrdə hərbi-siyasi proseslərdə Armeniya hökmdarları da fəal iştirak edirdilər. Roma sərkərdəsi Mark Antoniyə gəldikdə isə o, Atropatenaya və Armeniyaya sahib olmaq niyyətindən hələ əl çəkməmişdi. Bu zaman Parfiya ilə Atropatena arasında yeni ixtilaflar baş qaldırdı. Belə ki, yaranmış şəraitdə Parfiya Atropatenanı özünə tabe etdirməyə can atırdı. Bu isə Atropatenanın Romaya meyl etməsinə gətirib çıxartdı və I Artabazd e.ə. 35-ci ildə Antoniyə sülh və dostluq təklif etdi. E.ə. 34-cü ildə isə o, Fraaspa ətrafında ələ keçirilmiş Roma bayraqlarını (lat. signa millitaria və ya aquila - “qartal” - Roma legionlarının döyüş bayraqları) Mark Antoniyə Kretikə qaytardı, üstəlik, qızı İotapanı Mark Antoninin oğlu və varisi Aleksandr Heliosa ərə verəcəyini bildirdi. Lakin e.ə. 32-ci ildə Mark Antoni ilə Qay Oktavian Avqust (e.ə. 44-cü ilə qədər Oktavi Furin, e.ə. 27-ci ildən isə Qay Oktavian Avqust) arasında vətəndaş müharibəsi başlandı. Mark Antoni və Kleopatra Aksium döyüşündə (e.ə. 31-ci il, 2 sentyabr) məğlub edildikdən sonra Qay Oktavianın əlinə keçməmək üçün İsgəndəriyyədə intihar etdilər. Mark Antoni Kretikin VII Kleopatra Filapatordan olan oğlu (Atropatena şahzadəsi İotapanın sözlüsü) Aleksandr Helios isə Misir çarlığı Roma legionları tərəfindən istila ediləbdə Atropatenada idi. Oktavianın əmrilə o da əsir götürülmüş və Romaya aparılmışdı. Bu şəraitdə I Artabazd o dövrdə (e.ə. I əsr) “Armeniya” adlanan ərazilərin bir qisminə də nəzarət etməyə başlamış və Romanın dəstəyilə həm parfiyalılara, həm də, armneniyalılara qarşı uğurlu mübarizə apara bilmişdi. Eyni zamanda mənbələr e.ə. 31-ci ildə I Artabazdın birləşmiş Parfiya-Armeniya hərbi qüvvələri tərəfindən məğlub edildiyini və əsir götürüldüyünü də qeyd edir. Bu hadisə isə Oktavian Avqustla Mark Antoni arasında baş verən qarşıdurmanın pik həddə çatdığı dövrdə, böyük ehtimalla Aksium döyüşü ərəfəsində baş vermişdi. Bununla belə, bəzi mənbələr I Artabazdın Aksium döyüşü ərəfəsində Mark Antoniyə yardım üçün hərbi dəstə göndərməsi

DOI:10.30546/gdu.5.2025

haqqında da məlumat verir. Böyük ehtimalla I Artabazd parfiyalılara əsir düşsə də bir yol tapıb əsirlikdən azad olmuş və mübarizəni davam etdirmişdi [1, s. 253]. Bundan sonra yaranmış vəziyyətlə (Aksium döyüşündə Oktavianın qələbəsi) əlaqədar I Artabazd artıq Roma respublikasının mütləq sahibinə (prinseps, imperator) çevrilən Avqustla yaxınlaşmış və onun dəstəyi ilə Atropatena və Armeniyada öz hakimiyyətini bərpa etmişdi. Roma imperatoru I Artabazda mərhəmət göstərərək, Mark Antoni ilə VII Kleopatranın oğlu Aleksandr Heliosa vəd edilən qızı İotapanı da ona təhvil vermişdi. E.ə. I əsin sonlarında Parfiya və Atropatenada artan siyasi gərginlik şəraitində Oktavian Avqust aktiv şəkildə proseslərə müdaxilə etməyə başladı. O, e.ə. 2-ci ildə I Artabazdın böyük oğlu Ariobarzanı (II Ariobarzan - e.ə. 20 - e. 4) Atropatena taxtında hökmdar kimi təsdiq etdi [14. s. 36]. Gənclik illərində bir müddət Romada yaşamış, romalıların həyat tərzini və Avropanın şəhər mədəniyyətini mənimsəmiş Ariobarzan Roma mədəni dəyərlərinə xüsusi qiymət verir və romalılara rəğbət bəsləyirdi. Roma hökmdarı Oktavian Avqust başda olmaqla qədim romalılar da, öz növbəsində II Ariobarzanı "öz adamları" hesab edir, Romanın Yaxın Şərqdə ən etibarlı istinadgahı kimi Atropatenaya güvənirdi. Bu zaman aşkar şəkildə parfiyalılara meyl edən armeniyalılar Oktavian Avqustun qəzəbinə tuş gəlmişdilər. Buna görə də o, Qay Yuli Sezar Vipsanianın (e.ə. 20 - e. 4 - Qay Oktavianın oğulluğa götürdüyü bacısı nəvəsi idi) komandanlığı altında Armeniyaya ordu göndərmişdi. Qısa müddət ərzində Armeniyanı özünə tabe etdirən Qay Vipsanian atasının əmri ilə bu ərazilərin idarəçiliyini də II Ariobarzana tapşırmışdı [1, s. 254, 255]. Bundan sonra e. I əsrinin 2-ci ilində Qay Yuli Sezar Vipsanian Fərat çayında yerləşən adada Parfiya hökmdarı IV Fraatla görüşmüş və orada tərəflər arasında sülh müqaviləsi imzalanmışdı. Həmin müqaviləyə əsasən, Armeniya iki imperiya arasında bufer zona elan edilmiş və həmin ərazilərin nəzarəti Atropatena çarlarına həvalə olunmuşdu. Buna görə, armeniyalılar üsyan qaldırmış və Qay Vipsaniana hücum edərək onu ağır yaralamışdılar. Vipsanian Romaya qayıtdıqdan sonra, e. 4-cü ilində Likiyada (indiki Antalya və Muqla) vəfat etmişdi [12, II, s. 101, 102]. Həmin il II Ariobarzan da dünyasını dəyişmiş, bununla da Romanın Atropatenada və Armeniyada möhkəmlənmək cəhdləri iflasa uğramışdı. Sözügedən ərazilər yenidən Parfiyanın təsiri altınadüşmüşdü. Bundan sonra, e.ə. 323-cü ildən Atropatenanı idarə edən Atropati sülaləsinin hakimiyyəti başa çatmış, ölkəyə rəhbərlik Arşakilər sülaləsinin kiçik qolunun əlinə keçmişdi [5, s. 53, 54]. Qeyd edək ki, Atropatenanı idarə edən Arşakilərin bəzi nümayəndələri (II Artaban, Pakor və b.) sonralar Parfiya hökmdarları olmuşdular. II Artabanın çarlığı isə qədim Atropatena tarixində daha önəmli dövr hesab olunur. II Artabanın (11-38) ata xəttilə Atropatilər sülaləsindən olması haqqında da bəzi mülahizələr var [13, s. 101].

Yulilər-Klavdilər sülaləsinindən olan ikinci Roma imperatoru Tiberinin (14-37) dövründə Atropatena Parfiya-Roma münasibətlərində, bir növ vasitəçi rolu oynayırdı. Lakin o dövrdə Romanın Atropatenaya təsiri daha kəskin xarakter almışdı [6, s. 20-21]. Roma imperatoru Klavdi Neronun (54-68) dövründə isə Roma ordusu Parfiyaya qarşı müharibəyə hazırlaşmışdı. 57-ci ildə Roma ordusunun Şərqə hərbi yürüşünə də start verilmişdi. Lakin Romanın daxili siyasi həyatında baş verən proseslərlə bağlı hərbi əməliyyatlar tam dayandırılmış və 66-cı ildə tərəflər arasında sülh müqaviləsi bağlanmışdı. Beləliklə, Roma-Parfiya qarşıdurmasında uzun müddət üçün paritet əldə olunmuş və tərəflər arasınada aktiv hərbi əməliyyatlar 1 əsr sonra Roma imperatoru Trayanın (Mark Trayan - 53-117, 98-117-ci illərdə "Antoninlər" sülaləsindən Roma imperatoru) dövründə bərpa olunmuşdu. Trayanın Parfiya yürüşü - 114-117-ci illərdə olmuş, imperatorun xəstələnməsi və ölümü ilə bağlı başa çatmışdı [10, S. 183-202].

Antik müəlliflərin Atropatena haqqında sonrakı məlumatları alanların hücumları ilə bağlıdır. Eramızın I əsrinin 70-ci illərində alanların Albaniyaya və Atropatenaya yürüşləri

DOI:10.30546/gdu.5.2025

dövründə Atropatenanı Parfiya hökmdarı I Vologezin qardaşı Pakor idarə edirdi. Eramızın 72-74-cü illəri arasında isə alanlar Xəzər dənizi sahillərində yerləşən əyalətlərə, o cümlədən Atropatenaya basqın etmişdilər. Onlar bu vaxt Azov dənizi ilə Xəzər dənizi arasında geniş ərazidə yaşayırdı. Arşakilərin nəslindən olan Atropatena çarı Pakor da alanların hücumlarının qarşısını ala bilməmişdi. Parfiya çarı Vologez (Balaş) əlacsız qalıb bu böyük təhlükənin qarşısını almaq üçün parfiyalılara düşmən olan Romaya müraciət etmişdi. Parfiya çarının müraciətinin romalılar tərəfindən rədd edilməsinə baxmayaraq, romalılar və parfiyalılar uzun müddət sülh və əmin-amanlıq şəraitində yaşamışdılar. Bütün bunlar Tit Flavi Vespasianın (69-79) dövründə Roma imperiyasının I Yəhudi müharibəsi (66-73) apraması ilə bağlı idi.

Qeyd edək ki, eramızın I yüzilliyində Atropatenanın siyasi vəziyyəti haqqında məlumatlar çox azdır [15, s. 136]. Bəzi ehtimallara görə, 213-223-cü illərdə Parfiya çarları arasında hakimiyyət uğrnda qarşıdurmalar zamanı Atropatena yenidən siyasi müstəqilliyini bərpa etmişdi. 224-cü ildə Sasanilər Parfiya Arşakilərini taxtdan saldı və İranda öz hakimiyyətini bərqərar etdi. Tarixşünaslıqda hakim olan bir mülahizəyə görə, Sasanilər 227-ci ildə Atropatenanı da öz dövlətlərinin tərkibinə daxil etmişdilər. Bununla belə, bəzi ehtimallara əsasən, bu zaman Azərbaycanda olan Arşaki hakimi Artabaz (sonuncu Parfiya çarı V Orduvanın oğlu və varisi idi) Sasanilərə tabe olmadı və hakimiyyətini ən azı 230-cu ilə qədər qoruyub saxlaya bildi [10, s. 125]. Bu faktı hökmdarın adından kəsilmiş gümüş pullar da sübuta yetirir. Bəzi məlumatlara görə,  Atropatena müstəqilliyini 241-ci ilə qədər qoruyub saxlaya bilmiş, yalnız Sasani çarı I Şapurun (241-272) hakimiyyəti dövründə Sasanilərə tabe etdirilmişdi [11, s, 294]. Atropatena müstəqilliyini itirməsinə baxmayaraq, Sasanilər dövlətinin dini və ideoloji mərkəzi kimi mövqeyini uzun müddət qoruyub saxlamışdı. Beləliklə, Azərbaycanın cənub hissəsi üç əsrdən çox Sasanilər dövlətinin tərkibində qalmışdır. Sasani dövrü mənbələrində, o cümlədən Sasani çarı I Şapurun əmri ilə 262-ci ildə üç dildə qayalara həkk edilmiş Nəqşi-Rüstəm yazılarında ölkə Atropatena deyil, Adurbayğan və yaxud Adərbayğan kimi təqdim olunmuşdur [7, s. 194].

**Nəticə**

Göründüyü kimi, beş əsrdən artıq müddət ərzində son dərəcə çətin və mürəkkəb şəraitdə azadlığını və istiqlaliyyətini qorumağa çalışan atropatenalılar qədim dünya tarixində silinməz iz qoymuşlar. Atropatena qədim dünyanın fövqəldövlətləri sırasına daxil olmasa da Atropatdan başlayaraq [18, s. 116], hökmdarların həyata keçirdikləri dəqiq, düşünülmüş və balanslaşdırılmış xarici siyasət sayəsində uzun müddət ayaqda qalmağı, hərbi-siyasi proseslrin fəal aktorlarından biri kimi çıxış etməyi bacarmışdır. Lakin e.ə. I əsrin sonunda və e. I əsrinin əvvəlində Roma respublikasında prinsipatlıq rejiminin bərqərar edilməsi ilə əlaqədar həmin dövrün qüdrətli dövlətləri olan Roma ilə Parfiya arasında maraq dairələri uğrunda qarşıdurmalar növbəti mərhələyə qədəm qoydu və gərginlik xeyli artdı. Məqalənin mətnində təqdim olunan bir çox məqamlar da, məhz bu dövrdə Atropatena çarlarının yaranmış beynəlxalq situasiya ilə əlaqədar xarici siyasətdə mütəmadi dəyişikliklər etmələrinə aydınlıq gətirir. Onu da qeyd edək ki, o dövrdə Atropatenanın sərhədləri Starbonun qeyd etdiyi hüdudlardan daha geniş idi [3, s. 7]. Məhz e.ə. I əsrdə və e. I əsrində Roma respublikası və Parfiya imperiyası arasında baş verən hərbi qarşıdurmalarla bağlı bir çox müstəqil çarlıqlar fəaliyyətini dayandırmağa məcbur olmuşdular. Belə gərgin tarixi şəraitdə Atropatenanın ayaqda qalması və uzun müddət sverenliyini qoruması isə daha dərin elmi təhlillər tələb edən diqqətəlayiq haldır.

DOI:10.30546/gdu.5.2025

**Ədəbiyyat**

*Azərbaycan dilində*
1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild. (ən qədimdən b.e. III əsri). Bakı. "Elm" nəşriyyatı - 2007, 520 s.
2. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Muntəxəbat. Bakı; Turxan NPB, 2014, 204 s.
3. Nəcəfoava İ.M. (2006). "Starbon Midiya və Atropatena haqqında". AMEA Tarix İnstitu tu. "Elmi əsərlər", 23-cü cild, S. 7
4. Səfərova İ.X. Flavi Arrian Atropat haqqında / Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, "Nəşriyyat" şöbəsi, 2024. - S. 23-27.

*Rus dilində*
5. Алиев И. Г. (1989). Очерк истории Атропатены. Баку: Азернешр, 160 с.
6. Алиев К. Г. (1987). Античные источники по истории Азербайджана, Элм, 132 с.
7. Аликберов А. К., Мудрак О.А. (2020). Арран и сопредельные страны в парфянском тексте трехъязычной надписи III в. на скале Ка'ба-йи Зардушт (ŠKZ) / Вопросы ономастики, Т.17 № 1
8. Арриан. Поход Александра / перевод с древнегреческого М.Е. Сергеенко. Ответств. ред. д. и. н. О.О. Крюгер. - Москва. МИФ. 1993, 384 с.
9. Гасанов, Г.А. (2017). Александр Македонский и Атропат. О возрождении страны под названием Атарпатена Азербайджан. 331-321 гг. до н.э. Москва, Вече, 304 с.
10. Дибвойз Н. (2008) Политическая история Парфии. СПб, Издательство СПбГУ, 816с.
11. Мишин Д. Е. (2014). Хосров I Ануширван (531-579), его эпоха и его жизнеописание и поучение в истории Мискавейх. - Москва, ИВ РАН, 696 с.
12. Патеркул В. (1985). «Римская история» / А.И. Немировский, М.Ф. Дашкова- Воронеж: Изд. Воронежского университета, Т II, 211 с.
13. Сафарова И.Х. (2023). По поводу происхождения Парфянского царя Артабана // Азербайджанская историография. Научные труды. Т 84, №1

*İngilis dilində*
14. Bunson M. (1994). Encyclopedia of the Roman Empire. - Facts on File,1994, - 512 з.
15. Considine, John P. Dictionaries in early modern Europe: lexicography and the making of heritage. - Cambridge University Pres, 2008, 393 p.
16. De Ruggiero, Paolo Mark Antony (2014). A Plain Blunt Man. Barnsley: Pen and Sword.
17. Dignas B., Winter E. Rome and Persia in late antiquitiy: neighbours and rivals. - Cambridge University Press, 2007, 347 p.
18. Heckel W. (2021). Whos Who in the Age of Alexander and his Suuccessors. From Chaironea to Ipsos (338-301 BC). - Barnsley: Greenhill Books, 554 p.
19. Kamm A. (2006). Julius Caesar: A Life. - London; New York: Routledge, 172 p.
20. Planhol Xavier de. (1987). Azerbaijani. Geography//Iranica. /7, 1987,Vol.III. Fascicle 2-3.

## АТРОПАТЕНА И ВОЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В ПЕРЕДНЕЙ АЗИИ В I ВЕКЕ ДО Н.Э. - I ВЕКЕ Н.Э.

***Алмамедов Ясин Атраф оглы***

***Резюме***

В современный период интерес к изучению древней истории нашей страны еще более возрос. В данной статье, также представлены результаты исследования одной из важнейших периодов истории Азербайджана - история Атропатены. В статье четко и

DOI:10.30546/gdu.5.2025

последовательно прослеживается устойчивое влияние процессов, происходящих в Передней Азии в исторический период с I века до н.э. - по I век н.э., богатый волнениями, когда войны и конфликты, экспансия, захват и насилие являлись адекватным содержанием тогдашней жизни человека. В данной статье, раскрывается характер и содержание внутренней и внешней политики правителей, возглавляющие Атропатену в I веке до н.э. – I веке н.э. - в период противостояния между Римом и Парфией. Внутриполитическая жизнь Атропатены и ее внешняя политика представляется и анализируется в контексте политических изменений, происходящих в Передней Азии, определяются основные цели и направления, а таккже главные итоги проведенной им международной политики.

**ATROPATENA AND MILITARY-POLITICAL PROCESSES IN WESTERN ASIA IN THE 1ST CENTURY BC - 1ST CENTURY AD**

***Almamedov Yasin Atraf***

***Summary***

In the modern period, interest in studying the ancient history of our country has increased even more. This article also presents the results of the study of one of the most important periods in the history of Azerbaijan - the history of Atropatena. The article clearly and consistently traces the stable influence of the processes occurring in Western Asia in the historical period from the 1st century BC to the 1st century AD, rich in unrest, when wars and conflicts, expansion, conquest and violence were an adequate content of human life at that time. This article reveals the nature and content of the domestic and foreign policies of the rulers who headed Atropatene in the 1st century BC – 1st century AD – during the period of confrontation between Rome and Parthia. The internal political life of Atropatena and its foreign policy are presented and analyzed in the context of the political changes taking place in Western Asia, the main goals and directions are determined, as well as the main results of the international policy it carried out.

***Daxil olma tarixi 18 sentyabr 2025-ci il***